

# Prezidentin müəyyənləşdirdiyi strategiya regionların davamlı inkişafını təmin edib

## Hər il dövlət büdcəsindən ayrılan vəsait ölkənin sosial-iqtisadi yüksəlişinin yeni mərhələsini formalaşdırır

Azərbaycanda regionların inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Bu strategiyanın həyata keçirilməsində, o cümlədən ölkənin tərəqqisinin yeni keyfiyyət mərhələsinə yüksəlməsində regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramları (2004-2008-ci, 2009-2013-cü və 2014-2018-ci və 2019-2023-cü illər üzrə) böyük əhəmiyyət kəsb edir.

2004-cü ildən uğurla icra olunan bu proqramlar regionlarda şəhər, qəsəbə və kəndlərin simasını köklü şəkildə dəyişmiş, bölgələrin potensialının artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin, biznes və investisiya mühitinin yaxşılaşmasına, əhalinin rifahının yüksəlməsinə geniş imkanlar açıb.

Hazırda bu imkanlardan çıxış edərək ölkənin sosial-iqtisadi həyatında, xüsusilə regionlarda, o cümlədən kənd yerlərində iqtisadi inkişafın sürətləndirilməsi, əhalinin layiqli məşğulluğu və sosial rifah halının daha da yüksəldilməsi, eləcə də ekoloji təhlükəsizliyin gücləndirilməsi istiqamətlərində işlərin yeni keyfiyyət mərhələsinə keçməsi ön plana çıxıb. Bu məsələlərin uğurlu həlli ölkənin regionlarında mövcud olan potensialdan daha səmərəli istifadə etməklə bölgələrdə sosial-iqtisadi inkişafın sürətləndirilməsi və bu inkişafın davamlılığının möhkəmləndirilməsini zəruri edir. Bu isə öz növbəsində regionların sosial-iqtisadi inkişafı ilə əlaqədar dövlət tədbirlərinin, o cümlədən kompleks proqramlar hazırlanıb icra olunmasının davam etdirilməsini nəzərdə tutur.

Ötən 20 il ərzində sosial-iqtisadi inkişaf üzrə dövlət proqramları uğurla yerinə yetirilib. Azərbaycan başdan-başa inkişaf edən, öz kimliyini bərqərar edən dövlətə çevrilib. Modernləşən ölkəmiz yeni keyfiyyət mərhələsinə qədəm qoyub, siyasi, iqtisadi, mədəni həyatı müasirləşərək tamamilə dəyişib. Prezident İlham Əliyevin praqmatik, çevik siyasəti, sistemli və ardıcıl strateji kursu ölkəmizin müasir inkişafını təmin edib. Dövlət başçısının qürurla vurğuladığı kimi, bu uğurların əsasında məhz ölkədəki sağlam ictimai-siyasi mühit, xalq-iqtidar birliyi dayanır. Əminliklə deyə bilərik ki, Prezident İlham Əliyev tərəfindən həyata keçirilən siyasət Azərbaycanın daha güclü dövlətə çevrilməsinə, xalqın rifahına, firavan yaşayışına və inkişafına hesablanıb. Bunun üstündən kimsə xətt çəkə bilməz!

İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına xüsusi diqqət ayırması bugünkü uğurların mənbəyidir. Regionların inkişafı dövlət başçısının siyasətində əsas hədəflərdən biridir. Prezidentin bölgələrə tez-tez səfər etməsi bu faktı bir daha təsdiqləyir. Həyata keçirdiyi siyasətin əsas məqsədi paytaxtımızla yanaşı, bütün bölgələrimizin də hərtərəfli inkişafının təmin edilməsidir. Bu gün bölgələrimiz tarazlı şəkildə inkişaf edir, yeni infrastrukturlar qurulur, yollar çəkilir, körpülər tikilir, kəndlərimiz qazlaşdırılır. Eləcə də yeni müəssisələr yaradılır ki, bu da insanların işlə təminatında vacib rol oynayır. Təbii ki, bu amil əhalinin sosial rifah halının daha da yüksəlməsi ilə müşayiət olunur. 2004-cü ilən başlayan bu proses hələ də davam etməkdədir.

Prezident özü də bir neçə il əvvəl bu barədə fikirlərini bölüşərkən deyib: "Əslində, 2004-cü ildə qəbul edilmiş regionların sosial-iqtisadi inkişafı dövlət proqramının da əsas məqsədi bundan ibarət idi ki, regionlar inkişaf etsin, regionlarda infrastruktur layihələri icra edilsin, sahibkarlıq üçün şərait yaradılsın və ölkə iqtisadiyyatı şaxələndirilmiş şəkildə inkişaf etsin. Bu gün tam əminliklə deyə bilərik ki, biz bu məqsədlərə çatmışıq. Çünki infrastruktur olmadan heç bir inkişafdan söhbət gedə bilməz. Ona görə 2004-cü ildə və ondan sonra 2009-cu və 2014-cü illərdə qəbul edilmiş regionların sosial-iqtisadi inkişafı dövlət proqramları çox konkret proqramlar idi. Proqramların icrası nəticəsində bütün bölgələrdə, hər bir rayonda çox sürətli inkişaf getmişdir və bu gün də bu inkişaf davam edir. Bu illər ərzində biz iqtisadi inkişafımızın əsasını qoyduq. Çünki proqramın icrasına başlayarkən Azərbaycanda vaxtilə yaradılmış infrastruktur, demək olar ki, köhnəlmişdi. Biz özümüzü elektrik enerjisi ilə, qazla təmin edə bilmirdik, idxaldan asılı idik. Belə olan halda sənayenin, kənd təsərrüfatının inkişafından söhbət gedə bilməzdi. Biz ilk növbədə inkişaf üçün baza yaratdıq".

Dövlət başçısının dediklərinə söykənərək bir daha deyə bilərik ki, qazanılan iqtisadi uğurlar hesabına ölkəmiz demək olar ki, bütün sahələrdə önə çıxaraq dinamik inkişaf yolunu tutub. Fikrimizin təsdiqi kimi rəqəmlərə müraciət edək. 2003-cü ildə Azərbaycanda ümumi daxili məhsulun dəyəri 7,1 milyard manat olduğu halda 2022-ci ildə 133,7 milyard manat təşkil edib. 2023-cü ilin gözləntilərinə görə, 2003-cü illə müqayisədə 16,8 dəfə artım olacağı proqnozlaşdırılır. Ümumiyyətlə, 20 il ərzində ölkə iqtisadiyyatı 3,4 dəfə, ÜDM nominal ifadədə 22 dəfə artıb.

Nazirlər Kabinetinin Azərbaycanın 2024-cü il üzrə dövlət büdcəsinin layihəsinə həsr olunmuş geniş iclasında Baş nazir Əli Əsədov bildirib ki, cari ilin 8 ayında qeyri-neft sektorunda 2,6 faiz, qeyri-neft sənayesində isə 6 faiz artım qeydə alınıb. Hazırda ölkənin maliyyə vəziyyəti xeyli yaxşılaşıb, strateji valyuta ehtiyatları ilin əvvəlindən 14,5 faiz artaraq, 67 milyard dollara çatıb. O da məlum olub ki, büdcə gəlirləri 3,1 milyard manat (10,1 faiz), büdcə xərcləri isə 3,3 milyard manat (9,8 faiz ) artırılıb. Həmçinin diqqətə çatdırılıb ki, Prezident İlham Əliyev tərəfindən müəyyən edilən prioritet xərclərin istiqaməti əsasında 2024-cü ildə həyata keçiriləcək tədbir və layihələrin uğurlu icrası üçün büdcədə tələb olunan maliyyə təminatı yaradılıb. Ümumilikdə 2023-cü ildə dövlət büdcəsində aparılan dürüstləşmələrdən sonra işğaldan azad edilmiş ərazilərin yenidən qurulması ilə bağlı xərclər 1,8 milyard manat artırılaraq 4,8 milyard manata, müdafiə xərcləri isə 724 milyon manat artırılaraq 6 milyard manata çatdırılıb. 2024-cü ilin büdcə layihəsində həmin xərclərin məbləği Milli Məclisdə yekun müzakirədən sonra tam dəqiqləşəcək.

Regionların sosial-iqtisadi inkişafına dair sonuncu (2019-2023-cü illər) dövlət proqramı çərçivəsində görülən işlər, əldə olunan iqtisadi nailiyyətlər onu deməyə əsas verir ki, Azərbaycan güclü iqtisadiyyatı olan ölkədir. Və bu gücün mənbəyi Prezident İlham Əliyevin yürütdüyü iqtisadi siyasətdir. Bu siyasət qarşıya qoyulan məqsədlərin uğurla başa çatmasına yol açır. "İnkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq, görərik ki, onlarda uğurun əsas səbəbi neft-qaz deyil, bilikdir, savaddır, müasirlikdir. Bizdə isə həm bu olmalıdır, həm də, əlbəttə ki, təbii ehtiyatlar da var. Bu amillərin sintezi Azərbaycanı çox qabaqcıl, müasir ölkəyə çevirəcəkdir" deyən dövlət başçısının müəyyənləşdirdiyi sosial-iqtisadi strategiyanın mahiyyətində dayanıqlı və sabit inkişaf edən iqtisadi sistemin formalaşdırılması məqsədi dayanır.

20 ildə həyata keçirilən dövlət proqramlarının son üç ili işğaldan azad olunmuş ərazilərin yenidən qurulması, bərpa olunan ərazilərə köç etmiş əhalinin sosial müdafiəsi və təhlükəsizliyi, təhsil, səhiyyə və sosial xidmətlərlə təmin olunması, zəruri infrastruktur - işıq, qaz, su, istilik təminatları və digər lazımi tələbatları həyata keçirməklə müşayiət olunur. Şübhəsiz, bu, qarşıdakı illərdə də tam sürətlə davam edəcək. Bütün bunların icrası azad edilmiş ərazilərdə aparılan sürətli bərpa və yenidənqurma işlərinə ayrılmış büdcə vəsaitləri çərçivəsində təmin olunacaq.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

Azərbaycan.-2023.- 31 oktyabr, № 238.- S.9.